

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 165 (21.575)

3 sentyabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşüb.

Görüşə toplaşanlar Azərbaycan Prezidentini, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətlə qarşılayıblar.

Dövlətimizin başçısı görüşdə nitq söyləyib.

Sonra Prezident İlham Əliyevin Azərbaycan milli olimpiya komandasının üzvlərinin təltif edilməsi ilə bağlı sərəncamları elan edilib.

Dövlətimizin başçısı Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XXXI Yay Olimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə təltif edilmiş idmançılara və onların məşqçilərinə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu, "Tərəqqi" medallarını, "Şöhrət", "Vətənə xidmətə görə" ordenlərini təqdim edib, onlara bir daha uğurlar arzulayıb.

Sonda Prezident İlham Əliyev olimpiyaçılarla və onların məşqçiləri ilə xatirə şəkilləri çəkdirib.

# Naxçıvandan başlanan xilaskarlıq yolu



*Azərbaycan tarixinə qurucu və xilaskar kimi daxil olmuş ümummilli liderimiz Heydər Əliyev xalqımızın mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərmişdir. Ensiklopedik biliyi, dərin zəkası, müdrik və uzaqgörən strategiyası, çevik taktikası, polad məntiqi, sarsılmaz iradəsi, yüksək natiqlik məharəti, müstəsna idarəçilik istedadı ilə fenomenal şəxsiyyət olimpində qərar tutan dahi şəxsiyyət ömrünü Azərbaycanın gələcəyinə həsr etmiş, onun azadlığı, müstəqilliyi uğrunda inamla mübarizə aparmışdır. Ulu öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən sonra ölkəmizdə milli dirçəliş prosesi sürətlənmiş, həmin gündən başlayaraq elmi əsaslara söykənən dövlət quruculuğu prosesinə start verilmişdir. Bu mənada, 3 sentyabr, əslində, həm də siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətinin təməllərinin atıldığı gün kimi tarixdə öz yerini tutmuşdur.*

Ölkəmizin taleyinin hərraca qoyulduğu, yurdumuzun fəlakətə sürükləndiyi bir vaxtda səsini yüksəldən, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdıran ümummilli lider Heydər Əliyevin Vətənə dönüşü asan olmamışdır. O dövrün "şöhrət yarmarkası"nda müəyyən təmənnalar güdən məddahlar siyasi dividend qazanmağa çalışır, vəzifə pilləsində yüksəlmək üçün əldən-ayaqdan gedir, hakimiyyətin əlaltı və ayaqaltıları təbəqəsi yaranırdı. Bu təbəqə və onun himayəçisi olan Moskva bütün gücü ilə dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana qayıdışının qarşısını almağa çalışırdı. Lakin görünür, Moskva ən yüksək vəzifələrə irəli çəkilərkən tərcümeyi-halını diqqətlə izlədiyi dahi şəxsiyyətin böyük təcrübəsini, Onun öz xalqı ilə qırılmaz tellərlə bağlılığını, qətiyyətini, dönməzliyini, başlıcası isə mübarizə üçün yarandığını nəzərdən qaçırmış və ya bu amilləri kifayət qədər qiymətləndirə bilməmişdi. Təsadüfi deyil ki, ən yüksək dairələrdən verilmiş xəbərdarlıqlara, onu gözləyən ciddi təhlükələrə baxmayaraq, ulu öndər Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya, iki gün sonra isə Naxçıvana gəlmişdir.

Moskvadan Naxçıvana qayıdış o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə qayıdış idi. Böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi. Xalq öz böyük xilaskarını sonsuz məhəbbət və ehtiramla qarşılamışdı. Onun Naxçıvana gəlişi xalqın əsl nicatına çevrilmişdi. 30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə xalqın böyük dəstəyi ilə Naxçıvan və Azərbaycan parlamentlərinə deputat seçilən dahi şəxsiyyət bütün qüvvə və bacarığını xalqın üzləşdiyi problemlərin həllinə yönəltmişdir. Bu, bütün dünyada tanınan görkəmli siyasətçi Heydər Əliyevin xalqın iradəsi ilə böyük siyasətə qayıdışı üçün başlanğıc olmuşdur.

1991-ci il sentyabr ayının 3-də təkcə qədim diyarın deyil, həm də Azərbaycanın siyasi taleyində əhəmiyyətli rol oynayan çox mühüm bir hadisə baş vermişdir. On minlərlə insanın təkidli tələbi ilə ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilmişdir. Beləliklə, 3 sentyabr 1991-ci il xalqımızın böyük oğlunun xilaskarlıq missiyasının başlanğıcı kimi tarixə düşmüşdür.

Ümummilli lider dövlətçiliyimizin gələcəyi baxımından əlamətdar olan həmin gün barədə danışarkən deyirdi: ***"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini, sonra sessiyadakı çıxışları nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Yəqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq, eyni zamanda indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin ifasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

Beləliklə, ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyətə başlayaraq qısa müddət ərzində neçə-neçə onilliklərə sığmayan böyük işlər görmüşdür. Ağır blokada şəraitində yaşayan Naxçıvana məhz ulu öndər həyat vermişdir.

Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışan ümummilli liderimiz düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirmişdir. 1991-ci il sentyabrın 7-də Ali Məclis Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıc nöqtəsi idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla isə Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların yüz faiz muxtar respublikada saxlanması təmin olunmuşdur. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradılmış, Naxçıvanın müdafiə potensialı gücləndirilmiş, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası doğma Naxçıvanda qoyulmuşdur. Qeyd etmək lazımdır ki, ilk milli hərbi parad da 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilmişdir.

Bir sözlə, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilmişdir. Bu, elə bir məktəb idi ki, müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafın istiqamətləri məhz burada müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə demişdir: ***"Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti müstəqilliyə gedən yolda əsas rol oynamışdır. Sovet İttifaqının saxlanmasına dair referendumun keçirilməsi məhz Naxçıvanda mümkün olmadı. Çünki Heydər Əliyev buna imkan vermədi. Bu, müstəqilliyə gedən yolların müxtəlif istiqamətləri idi və o da təsadüfi deyil ki, məhz o illərdə Azərbaycan dövlətçiliyinin gələcəyi müəyyən edilirdi".***

Ulu öndərin ölkəmizin müstəqilliyini təmin etməyə istiqamətlənmiş qərarları bəzi antimilli dairələri ciddi narahat edirdi. Ona görə ulu öndərə qarşı siyasi mübarizə metodlarına sığmayan vasitələrdən istifadə etməyə çalışırdılar. Heydər Əliyev dühasına inanan, onunla həmrəy olan xalqın qətiyyətli mövqeyi nəticəsində Naxçıvanda çevriliş cəhdi də tam iflasa uğradı. Bu hadisə bir daha göstərdi ki, naxçıvanlılar ölkəni məhvə sürükləyən Xalq Cəbhəsi iqtidarını yox, məhz ümummilli lider Heydər Əliyevin siyasi xəttini dəstəkləyir, Naxçıvanın, bütövlükdə isə Azərbaycanın xilasını Onda görürlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "QAYIDIŞ" kitabında həmin hadisələri belə şərh etmişdir: ***"Heydər Əliyevin Naxçıvanda yenidən siyasətə qayıtması Azərbaycanı bir dövlət kimi dağıtmaq istəyən daxili və xarici düşmənləri ciddi təşvişə salmışdı. Ozamankı iqtidar Naxçıvanı iqtisadi və informasiya blokadasında saxlayır, Heydər Əliyevin əleyhinə hər cür yaramaz təbliğatı qızışdırır, yaltaq, ikiüzlü deputatların vasitəsilə Onu Azərbaycan parlamentində iştirakdan və ölkədə cərəyan edən siyasi proseslərdən təcrid etməyə çalışırdı. Qarabağ probleminin həlli ilə bağlı Heydər Əliyevin irəli sürdüyü təkliflər "Qarabağ heç vaxt indiki qədər bizim olmayıb" məddahlığı ilə qarşılanır, hadisələrin düzgün qiymətləndirilməməsi ucbatından siyasi proseslər getdikcə millət, xalq üçün təhlükəli xarakter almağa başlayırdı".***

Hakimiyyətdə olan AXC-Müsavat iqtidarının səriştəsizliyi, bacarıqsızlığı nəticəsində 1993-cü ilin iyun ayının əvvəllərində respublikada yaranmış gərgin ictimai-siyasi hadisələr kulminasiya nöqtəsinə çatmış, Gəncədə baş verən silahlı qarşıdurmalar fonunda hakimiyyət böhranı, siyasi böhran bütün ölkəni öz cənginə almışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvanda yaşayan möhtərəm Heydər Əliyevə üz tutdu. Xalq ulu öndərə müraciət edib Bakıya gəlməsini və vəziyyətdən çıxış yolu tapmasını təkidlə xahiş etdi. Dahi şəxsiyyət 1993-cü il iyunun 15-də ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə gəlməklə respublikanı parçalanmaqdan xilas etdi.

Həmin gündən etibarən ulu öndərin müdrik daxili və xarici siyasəti nəticəsində vaxtilə Naxçıvandan başlanan müstəqillik yolu ölkə miqyasında davam etdirildi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri kimi fəaliyyət göstərdiyi tarixi dövr (1993-2003) ölkəmizdə müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövrü kimi yadda qalmışdır. Bu çətin və mürəkkəb dövrdə dahi şəxsiyyət özünün adı və yorulmaz mübarizəsi ilə bağlı olan yeni bir epoxa yaratmışdır. Bu, Azərbaycanın xilası və inkişafı epoxasıdır.

Ötən dövrdə Naxçıvan Muxtar Respublikasında da böyük inkişafa nail olunmuşdur. Bu gün əminliklə deyə bilərik ki, ümummilli liderimiz Heydər Əliyevin tarixin çətin məqamlarında böyük xilaskarlıq missiyasını həyata keçirərək qoruyub saxladığı və gələcək inkişaf proqramını müəyyən etdiyi Naxçıvan Muxtar Respublikası ulu öndərin arzusunda olduğu inkişafa və tərəqqiyə qovuşub. Təsadüfi deyildir ki, bu gün Naxçıvanı siyasi baxımdan "Qafqazın Strasburqu", iqtisadi inkişaf baxımından isə "Qafqazın San-Fransiskosu" kimi təqdim edirlər. Bütün bunlar isə ümummilli liderimizin dövlətçilik yolunun Naxçıvanda davam etdirilməsinin nəticəsidir.

*Ulu öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisədir. Naxçıvandan başlanan xilaskarlıq yolu Azərbaycanın şanlı tarixində yeni səhifə açmaqla müstəqil ölkəmizin işıqlı gələcəyini təmin etmişdir.*

**"Şərq qapısı"**

## “Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycanda dövlət quruculuğunun Naxçıvan mərhələsi” mövzusunda elmi-praktik konfrans

*Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsinin 25-ci ildönümünə həsr olunmuş “Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycanda dövlət quruculuğunun Naxçıvan mərhələsi” mövzusunda elmi-praktik konfrans keçirib.*



Konfransı Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli açıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli “Azərbaycanın qurtuluş tarixi Naxçıvandan başladı” mövzusunda çıxış edib. Bildirib ki, 1990-cı il iyulun 22-də Moskvadan Naxçıvana qayıdan ulu öndər sentyabrın 30-da keçirilən seçkilərdə Azərbaycan və Naxçıvan parlamentlərinə deputat seçilib, məhz Onun sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında mühüm tarixi qərarlar qəbul edilib. Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi 1991-1993-cü illər isə yalnız Naxçıvanın deyil, bütövlükdə Azərbaycanın çoxminillik dövlətçilik tarixində mühüm mərhələ oldu.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva “Müasir Naxçıvan ulu öndər Heydər Əliyev siyasətinin əsəridir” mövzusunda çıxışında bildirib ki, XX əsrdə, əsasən, aqrar region kimi tanınan Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində intensiv şəkildə sənayeləşən bölgəyə çevrilib. Bu gün muxtar respublikada dağmədən, yeyinti, yüngül, metallurgiya, maşınqayırma, tikinti, mebel və digər sənaye sahələri uğurla inkişaf etməkdədir. Hazırda muxtar respublika müəssisələrində istehsal olunan məhsulların növü 361-ə çatıb və 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Muxtar respublikanın ərzaq və enerji təhlükəsizliyi tam təmin edilib. Naxçıvan mühüm turizm mərkəzlərindən birinə çevrilməkdədir. Bütün bu nailiyyətlərə ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik siyasətinin davam etdirilməsi sayəsində nail olunub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov “Ümummilli lider Heydər Əliyev və Yeni Azərbaycan Partiyası” mövzusunda çıxış edib. Yeni Azərbaycan Partiyasının XX əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə cərəyan edən mürəkkəb ictimai-siyasi şəraitdə siyasi səhnəyə qədəm qoyduğunu qeyd edən Anar İbrahimov deyib ki, müstəqillik ərəfəsində və istiqlaliyyətin ilk illərində cəmiyyətdəki total xaosun səbəb olduğu vətəndaş itaətsizliyi, xüsusən keçmiş SSRİ-nin tənəzzülü prosesində Azərbaycana “miras” qoyulmuş ağrılı ərazi bütövlüyü problemi dövlət müstəqilliyimizin ilk illərinin səciyyəvi cəhətləri idi. Belə bir həlledici şəraitdə Azərbaycan cəmiyyətində xalqımızın yekdil inamını qazanaraq ölkəni düşdüyü dərin siyasi böhrandan, fəlakət həddinə çatmış sosial-iqtisadi geriləmədən, uğursuz xarici siyasətin nəticəsi olan beynəlxalq aləmdəki təklənmədən xilas edəcək yeni, ümummilli siyasi qüvvənin yalnız Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ulu öndər Heydər Əliyevin rəhbərliyində yaranacağı labüd idi. Bu baxımdan ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv tarixi zərurət idi. 1992-ci il noyabrın 21-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasında ölkənin ayrı-ayrı bölgələrindən cəmiyyətin ən müxtəlif təbəqələrini təmsil edən 550 nəfərdən artıq nümayəndənin iştirakı ilə təsis konfransı keçirilib.

Yeni Azərbaycan Partiyasının yaranması ulu öndərin 90-cı illərin əvvəllərində Naxçıvanda həyata keçirdiyi rəhbərlik fəaliyyəti ilə Azərbaycanı düçar olduğu ağır vəziyyətdən xilas etmək qüdrətinə malik yeganə siyasi lider olduğunu nümayiş etdirirdi. Partiya öz dahi liderinin rəhbərliyi ilə tezliklə müxalifət partiyasından iqtidar partiyasına çevrilib və 1993-cü ilin 15 iyunundan başlanan Milli Qurtuluş yolu ilə irəliləyərək Azərbaycanda müstəqil dövlətçiliyin qurulmasında ümummilli liderimizin əsas siyasi dayağına çevrilib.

Vurğulanıb ki, hazırda 670 mindən çox üzvü olan ölkənin bu nəhəng partiyasının ən mübariz təşkilatlarından biri də 8 rayon və şəhər təşkilatını, 501 ərazi ilk partiya təşkilatını əhatə edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatıdır. Bu gün onun sıralarında cəmləşən partiya üzvlərinin əsas hissəsini təşkil edən gənclər və qadınlar muxtar respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında əsas hərəkətverici qüvvəyə çevrilib. 1992-ci ildə, partiyanın yarandığı ilk günlərdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı öz ətrafında 1118 nəfəri birləşdirirdisə, hazırda muxtar respublikada partiya üzvlərinin sayı 51 min 908 nəfərdir ki, bu da muxtar respublikanın siyasi fəal əhalisinin, təxminən, 20 faizi deməkdir.

Anar İbrahimov Yeni Azərbaycan Partiyasının yaranması və fəaliyyətə başlamasını ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsinin ən mühüm hadisələrindən biri adlandıraraq qeyd edib ki, əgər 1993-cü ilin 15 iyun tarixi ümummilli liderimizin ölkəmizin xilası naminə Milli Qurtuluş tarixinin başlanğıcıdırsa, 1991-ci ilin 3 sentyabr tarixi də ulu öndər Heydər Əliyevin Naxçıvanın xilası naminə çətin və şərəfli yolun başlandığı gündür.

Konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli yekun vurub.

Konfrans iştirakçıları tədbirin sonunda “Ulu torpaq, ulu öndər” filminə və Heydər Əliyev Muzeyinin ekspozisiyasına baxıblar.

---

İcmal

## Naxçıvanda bütün sahələrdə inkişaf prosesləri davamlı xarakter alıb

### *Avqust ayının nəticələri də belə deməyə əsas verir*

***Naxçıvan Muxtar Respublikasının əldə etdiyi ən böyük nailiyyətlərdən biri də hərbi təhlükəsizlik sisteminin mükəmməl şəkildə qurulmasıdır. Ölkəmizin əsas ərazisindən ayrı salınmış muxtar respublikanın təhlükəsizliyindən söz açarkən əvvəlcə düşmən ölkə ilə sərhədlərimizdəki hakim yüksəkliklərə diqqət yönəldilir. Dağlıq ərazilərdə etibarlı müdafiə sisteminin qurulması, burada Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlərin xidmət şəraitinin daim diqqətdə saxlanılması, maddi-texniki təminatın gündən-günə daha da yaxşılaşdırılması hər birimizdə qürur hissləri ilə bərabər, əminlik yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tez-tez muxtar respublikanın hakim yüksəkliklərində xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə, buradakı vəziyyətlə tanış olur. Avqustun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri növbəti dəfə Ordubad rayonunda sərhəd və dağlıq şəraitdə yerləşən hərbi hissələrdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb.***



Ali Məclisin Sədri xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətə təşəkkür edib.

Sonra Ali Məclisin Sədri Culfa rayonunun Ləkətağ kəndində yerləşən hərbi hissəyə gəlib, əsgər və zabitlərlə görüşüb.

Bu gün heyvandarlıqla məşğul olan insanların yaylaqlarda məskən salmalarının bir səbəbi də ordumuza, əsgərlərimizə olan güvəndir. Uca dağların əhatəsində yerləşən Ordubad yaylaqlarında da hər il heyvandarlar məskən salır, obalar qurulur. Oba sakinləri rahat və təhlükəsiz şəraitdə təsərrüfatla məşğul olurlar. Onlar bilirlər ki, torpaqlarımız göz bəbəyi kimi qorunur. Bu gün xalqımızla ordumuz arasındakı birliyin bir nümunəsi də oba sakinləri ilə burada xidmət edən əsgərlər arasında yaranıb.

Avqustun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ordubad yaylaqlarına gəlib, oba sakinləri ilə görüşüb.

Hazırda cəmiyyətimizin bütün təbəqələri kimi, Azərbaycan Vətən Müharibəsi iştirakçıları da ölkənin ictimai-siyasi həyatında, abadlıq-quruculuq işlərində fəal iştirak edirlər. Şəhid ailələrinin və müharibə əlillərinin yaşayış şəraitinin yaxşılaşdırılması, onlara sosial xidmət göstərilməsi isə dövlətimizin daim diqqət mərkəzindədir.

Avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində sağlamlıq imkanları məhdud olan 4 nəfər Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzillər və Azərbaycan Vətən Müharibəsinin iştirakçısı olan iki nəfərə isə “NAZ Lifan-320” markalı minik avtomobilləri təqdim edilib.

Ali Məclisin Sədri yeni mənzillə və avtomobillə təmin olunanlara təbriklərini çatdırıb, mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim edib, onlara firavan həyat arzulayıb.

Son illər muxtar respublikada 200-dən artıq təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Hazırda Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni binanın, eləcə də 12 məktəb binasının tikintisi və əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Həyata keçirilən tədbirlər məzunların buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaradıb. 2016-cı ilin məzunlarından 1538-i ali təhsil müəssisələrinə qəbul olunub ki, bu da sənəd verənlərin 62 faizini təşkil edir. Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 199-u ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olunub. Bütövlükdə ali hərbi məktəblərə və Azərbaycan Respublikasının digər ali məktəblərinə 1737 məzun qəbul olub ki, bu da sənəd verənlərin 65 faizini təşkil edir.

Avqustun 22-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov gənclərə müraciət edərək deyib: ***“Gələcəkdə hansı sahədə çalışmağınızdan asılı olmayaraq müstəqil Azərbaycana ləyaqətlə xidmət etməlisiniz. Dünyagörüşünüzü inkişaf etdirməli, milli və ümumbəşəri dəyərləri, xalqımıza məxsus adət-ənənələri mənimsəməlisiniz. Bununla yanaşı həm də vətənpərvər olmalı, Vətən naminə çalışmalı, ümummilli liderimiz Heydər Əliyev yoluna və ideyalarına sədaqət nümayiş etdirməlisiniz”.***

Muxtar respublikamızda bütün sahələrdə inkişaf proseslərinin davamlı xarakter alması, qarşıya çıxa biləcək problemlərin vaxtında həllinə nail olunması istiqamətində ardıcıl iş görülür. Qızmar yay günündə payız-qış mövsümünə hazırlıqla bağlı konkret hədəflərin müəyyənləşdirilməsi, bununla bağlı müvafiq tapşırıqların verilməsi gələcəyimizin etibarlı əllərdə olduğunun bir daha sübut edir.

Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib.

Ali Məclisin Sədri müşavirədə payız-qış mövsümünə hazırlıqla bağlı aidiyyəti təşkilatlara tapşırıqlar verib.

Hər il muxtar respublikanın kəndlərində geniş tikinti-quruculuq işləri aparılır, kəndlərdə şəhər rahatlığı yaradılır. Buna görə də bu gün muxtar respublikamızın kəndlərində məskunlaşanların sayı hər gün artmaqdadır. Şəhər və kənd həyat tərzləri arasında həmişə təzadlı müqayisə predmetləri olsa da, cəmiyyətin inkişafı ilə şəhər və kənd arasındakı fərq təzahürləri də yox olur və köhnədənqalma “kəndli” ifadəsi öz qüvvəsini itirir. Bu gün muxtar respublikada məhz belə bir ab-hava mövcuddur. Çünki bu gün bir ailənin sərbəst yaşayışı üçün paytaxt Naxçıvan şəhərində mövcud olan hər bir şərait ucqar dağ kəndlərində də yaradılıb. Həyata keçirilən tədbirlər çərçivəsində Şahbuz rayonunun Kiçikoba kəndində də yeni sosial obyektlər istifadəyə verilib.

Avqustun 29-da Kiçikoba-Daylaqlı kənd yolunun, kənd və xidmət mərkəzlərinin açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Naxçıvanda elmimizin baş qərargahı vəzifəsini uğurla həyata keçirir. Məhz Ali Məclis Sədrinin göstərdiyi qayğı sayəsində bölmənin elmi-texniki təminatı sahəsində yüksək uğurlara nail olunub, yeni avadanlıqlarla təchiz edilmiş laboratoriyalar istifadəyə verilib, dünya kitabxanaları ilə bilavasitə əlaqəni təmin edən elektron kitabxana qurulub, alim və tədqiqatçılar üçün hərtərəfli iş şəraiti yaradılıb. Bu sahədə görülən işlərin davamı olaraq bölmənin Təbii Ehtiyatlar İnstitutunun Seysmoloji Xidmət Mərkəzi istifadəyə verilib.

Mərkəzdə ölkəmizdə ilk dəfə tətbiq olunan ABŞ-ın istehsalı olan ən müasir seysmoloji avadanlıqlar və proqram təminatı quraşdırılıb. Yeni avadanlıqlar vasitəsilə muxtar respublikanın Heydərabad, Şahbuz, Babək və Ordubad seysmik məntəqələrindən alınan məlumatlar peyk vasitəsilə Bakıda quraşdırılmış qəbuledici sistemə və eyni zamanda internet vasitəsilə mərkəzdəki kompüterə daxil olur. Quraşdırılan yeni avadanlıqlar hesabına muxtar respublikanın ərazisində, ümumilikdə isə regionda seysmoloji aktivliyə tam nəzarət etmək mümkündür. Mərkəzin qarşısında duran əsas vəzifə muxtar respublika ərazisində seysmoloji dəyişiklikləri qeydə almaq, təhlil etmək və aidiyyəti üzrə məlumat verməkdən ibarətdir.

Ali Məclisin Sədri seysmoloji xidmət sahəsi üzrə mütəxəssislərin hazırlanmasının vacibliyini bildirib, kollektivi təbrik edib və onlara işlərində uğurlar arzulayıb.

Bu gün ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsinin 25-ci ildönümünü sevinc hissləri ilə qeyd edirik. Çünki bu gün təkcə Naxçıvan Muxtar Respublikasını deyil, ümumilikdə, Azərbaycanı xilasa aparan yolun başlanğıc günüdür. Ümummilli liderin həyatı və fəaliyyətinin Naxçıvan dövrü faktiki olaraq Azərbaycanın dövlət müstəqilliyinin siyasi-ideoloji əsaslarının qoyulduğu, milli dövlətçilik prinsiplərinin bərpa olunduğu, müstəqil dövlətçilik konsepsiyasının ideya əsaslarının hazırlandığı dövr idi. Bu gün Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin təməlini qoyduğu elmi əsaslara söykənən inkişaf strategiyasına əsaslanan alternativsiz siyasi xəttin uğurla davam etdirilməsi, dövlət proqramlarının, infrastruktur layihələrinin reallaşdırılması bütün istiqamətlərdə yeni-yeni uğurların qazanılmasına rəvac verib. Ötən ayın nəticələrinə əsaslanaraq deyə bilərik ki, Naxçıvanın daxili imkanlarından, ehtiyatlarından, iqtisadi əlaqələrindən əldə olunan resurslar ardıcıl olaraq böyük inkişafa və sosial rifahın daha da yaxşılaşdırılmasına ünvanlanıb. Bütün bunlar dahi şəxsiyyət Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir.

**Rauf ƏLİYEV**

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilir



***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində keçirilən kollegiya iclasını giriş sözü ilə açan nəqliyyat naziri Mirsənani Seyidov bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Nəqliyyat Nazirliyinə də bir sıra tapşırıqlar verilib.***

Nəqliyyat Nazirliyi artıq bu tapşırıqların icrasına başlayıb. Belə ki, ilkin olaraq ucqar dağ və sərhəd kəndlərinə işləyən marşrut avtobuslarının texniki müayinədən keçirilməsi işinə start verilib, bu məqsədlə nazirliyin payız-qış mövsümünə hazırlıq komissiyası Şərur rayonunun Havuş, Şahbulaq, Yuxarı Yaycı, Ordubad rayonunun Unus, Tivi, Parağa, Babək rayonunun Gərməçataq, Yuxarı Buzqov kimi ucqar dağ kəndlərinə işləyən nəqliyyat vasitələrinin sahibkarları ilə əlaqə saxlayıb, mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün onlara köməklik göstərilib.

Payız-qış mövsümündə sərnişinlərin rahatlığını təmin etmək üçün Naxçıvan-Bakı marşrutunda işləyən avtobuslardan birinin hər gün Şərur və Culfa avtovağzallarından yola salınması işi davam etdirilməkdədir. Şahbuz və Ordubad avtovağzallarında isə Naxçıvan-Bakı avtobus marşrutuna bilet satışı təşkil olunub.

Vurğulanıb ki, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində təsdiq olunmuş tədbirlər planı üzrə payız-qış mövsümünə hazırlıq işləri davam etdirilir. Cəmiyyətin idarə və strukturlarında təsərrüfatın və kadrların payız-qış mövsümünə hazırlığı ilə bağlı qərargah yaradılıb və ötən ilin payız-qış mövsümündəki bütün işlər təhlil edilərək aşkar olunmuş nöqsan və çatışmazlıqlar nəzərə alınmaqla təsdiq edilmiş tədbirlər planı əsasında sahələr üzrə müəyyən işlər görülüb. Lokomotivlərin və sərnişin vaqonlarının payız-qış mövsümünə hazırlığı ilə əlaqədar tələb olunan ehtiyat hissələri və 50 ton sürtkü yağı tədarük edilib, istilik sistemləri ilə işləyən vaqonların qış mövsümündə qızdırılması üçün 44 ton daş kömür ehtiyatı yaradılıb. Elektrovoz və teplovozlara baxış keçirilib. Onların, habelə sərnişin vaqonlarının cari təmiri aparılmaqdadır. Xidmət ərazisindəki yoldəyişdirici qurğulara, keçidlərə, süni qurğulara, yol yatağına baxış keçirilib, suötürücü kanallar, körpülər, küvetlər selbasar suxurlardan və daşlardan təmizlənib.

Nəqliyyat naziri Naxçıvan Beynəlxalq Hava Limanında da payız-qış mövsümü ilə əlaqədar hazırlıqlara başlanıldığını bildirərək deyib ki, işıq sisteminin, rabitə qurğularının, maşın-mexanizmlərin texniki baxışının həyata keçirilməsi, tələbata görə yanacaq və mal-material ehtiyatının yaradılması ilə bağlı tədbirlər həyata keçirilməkdədir. Hava limanının dünya standartlarına cavab verməsi burada qış mövsümünü yüksək səviyyədə başa vurmağa imkan yaradır.

"Naxavtoyol" Dövlət Şirkətində də qış mövsümü ilə əlaqədar müəyyən işlərin görülməyə başlanıldığı vurğulanıb. Bildirilib ki, mexanizatorlar isti paltarlarla təmin edilib, çətin hava şəraitində işləyəcək avtomaşınlar üçün zəncir tədarük olunub, payız-qış dövründə işlədiləcək avtomaşın və yol texnikaları saz vəziyyətə gətirilib. Bununla əlaqədar 12 ədəd avtoqreyder, 29 ədəd özüyükünüboşaldan avtomaşın, 8 ədəd buldozer, 1 ədəd qumsəpən avtomaşın, 3 ədəd ekskavator, 5 ədəd avtoyükləyici və 1 ədəd qartəmizləyən maşın qış mövsümündə işləmək üçün hazırlanıb. Asfalt yollarda işləyəcək avtoqreyderlərə asfalt-beton örtüyün dağılmaması üçün rezin bıçaqlar tədarük edilib.

Ucqar dağ kəndlərinə gediş-gəlişi təmin etmək üçün həmin kəndlərdə yolları tənzimləyən maşın-mexanizmlər ayrılıb. Bu yollarda aparılan yol əsasının bərkidilməsi işləri qış mövsümü ərzində hərəkətin fasiləsizliyini təmin etməyə xidmət edir.

Həmçinin avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan qum tədarükü diqqət mərkəzində saxlanılır. Belə ki, qış mövsümünü uğurla başa çatdırmaq üçün Şorsu qumunun tədarükünə başlanılıb.

Sonra "Naxçıvan Dəmir Yolları" MMC-nin direktoru Mahir Əliyev, Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli, "Naxavtoyol" Dövlət Şirkətinin baş direktoru Bəhruz Əsgərov payız-qış mövsümünə hazırlıqla bağlı məlumat veriblər.

* * *

*2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyində müşavirə keçirilib. Müşaviranı kənd təsərrüfatı naziri Elşad Əliyev açaraq məruzə ilə çıxış edib.*



Bildirilib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Kənd Təsərrüfatı Nazirliyinə də bir sıra tapşırıqlar verilib. Tapşırıqların icrası ilə bağlı nazirlik Dövlət Baytarlıq Xidməti ilə birlikdə heyvandarlıq, quşçuluq və arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinin qışlamaya hazırlığı ilə əlaqədar maarifləndirmə tədbirlərini həyata keçirməli, xəstəliklərə qarşı tələb olunan dərman vasitələri ehtiyatının yaradılmasını diqqətdə saxlamalıdır.

Qeyd olunub ki, son dövrlərdə muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində bir sıra layihələr həyata keçirilib. Belə ki, aparılan meliorasiya, irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumunun artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının yaradılması, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının sürətli inkişafına əlverişli şərait yaradıb. Toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, yanacaq-sürtkü materiallarına görə verilən yardımların 25 faiz artırılaraq 50 manata çatdırılması, istifadə olunan gübrələrin və herbisidlərin 70 faizinin pulsuz verilməsi, satılan texnikaların dəyərinə 40 faiz güzəşt tətbiq edilməsi kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara güclü stimul verib. Bildirilib ki, 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar nazirlik tərəfindən müvafiq tədbirlər həyata keçirilib. 2017-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 31 min hektar sahədə şum aparılaraq taxıl əkilməsi nəzərdə tutulub. Bu işlərin mütəşəkkil və optimal müddətdə keçirilməsində kənd təsərrüfatı texnikasının sazlığının başlıca şərtlərdən olmasını nəzərə alaraq nazirliyin Texniki nəzarət və aqroservis sektoru tərəfindən texnikaların sazlığı vəziyyəti öyrənilib, lazım olan ehtiyat hissələrinin alınıb gətirilməsi və sahibkarlara çatdırılması üçün tədbirlər həyata keçirilib. Hazırda muxtar respublikada 1742 ədədi yeni olmaqla, 2837 ədəd kənd təsərrüfatı texnikası mövcuddur ki, onlardan 134 ədədi "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayon bazalarında, 2703 ədədi isə sahibkarların xüsusi mülkiyyətindədir. Payızlıq taxıl əkini ilə əlaqədar şum və səpin aparmaq üçün 749 ədəd təkərli, 107 ədəd tırtıllı texnika, 75 ədəd taxılsəpən, 374 ədəd kotan, 52 ədəd çizel və şırımaçan, 23 ədəd toxumtəmizləyən, 290 ədəd lafet saz vəziyyətə gətirilib. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bazasında olan 6 ədəd, fiziki şəxslərdə olan 18 ədəd taxılsəpənə pulsuz şırımaçan aqreqatlar qoşulub. Cari ildə bütün taxıl sahələrinin şırım üsulu ilə əkilməsi nəzərdə tutulur.

Elşad Əliyev bildirib ki, toxumçuluq bitkiçilikdə vacib sahələrdən hesab edilir. Payızlıq taxıl əkininin aparılması üçün muxtar respublikaya 6500-7000 ton toxum tələb olunur. Tələb olunan toxum, əsasən, torpaq mülkiyyətçilərinin özlərində və toxumçuluq təsərrüfatlarında mövcuddur. Muxtar respublikada fəaliyyət göstərən 5 toxumçuluq təsərrüfatında 1500 tondan artıq toxum təmizlənib. Hazırda təmizlənmiş toxumlar dərmanlanaraq kisələrə yığılır.

Qeyd olunub ki, payızlıq taxıl əkini sahələrində siçanabənzər gəmiricilərlə mübarizə aparılması məqsədilə nazirliyin Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantini şöbəsində "Sinkfosfid" preparatı var və əvvəlki illərdə olduğu kimi, bu il də ehtiyac yarandığı təqdirdə mübarizə tədbirlərinin pulsuz aparılması nəzərdə tutulur.

Sonra Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdirləri Əyyub Abdullayev və Əsgər Həsənovun, "Araz" Elm-İstehsalat Birliyinin direktoru Bəhruz Bayramovun çıxışları olub.

* * *

*Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar Gənclər və İdman Nazirliyində də kollegiya iclası keçirilib. İclası giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov açaraq nazirlik tərəfindən payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələrdən danışıb.*

Bildirilib ki, nazirliyin strukturuna daxil olan idarələr və idman müəssisələrinin, idman obyektlərinin, olimpiya-idman komplekslərinin, uşaq-gənclər idman məktəblərinin payız-qış mövsümünə hazırlığı ilə bağlı verilmiş tapşırıqlara uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və tabeliyində olan müəssisələrin qazanxanalarında elektrik və istilik sistemi xətlərinin vəziyyəti yoxlanılıb. İlham Əliyev adına Olimpiya-İdman Kompleksi, Şərur Olimpiya-İdman Kompleksi, Naxçıvan Muxtar Respublika Stadionu, İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbi və Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində payız-qış mövsümündə gənclərin idmanla müntəzəm məşğul olması və kütləvi idman tədbirlərinin keçirilməsi üçün istilik, elektrik sistemi və su təchizatına nəzarət gücləndiriləcək. Həmçinin idman müəssisələrində yoluxucu xəstəliklərə qarşı dezinfeksiya işlərinin aparılması və idmançıların tibbi müayinədən keçirilməsi işləri nəzarətdə saxlanılacaq. Bundan başqa, payız-qış mövsümündə elektrik enerjisi, qaz, rabitə və digər xidmətlərdən düzgün istifadə olunması, israfçılığa yol verilməməsi təmin ediləcək.



Azad Cabbarov deyib ki, payız-qış mövsümünə hazırlığın əsas məsələsi kimi nazirliyin, o cümlədən tabeli və nazirliyin strukturuna daxil olan təşkilatların yerləşdiyi inzibati binaların mühafizəsinə ciddi nəzarət olunmalıdır.

Nazirliyin strukturuna daxil olan rayon (şəhər) gənclər və idman idarələri yeniyetmə və gənclərin payız-qış mövsümündə də idmanla müntəzəm məşğul olmaları, idman yarışlarında iştirak etmələri üçün yaradılmış şəraitdən düzgün istifadə etməlidirlər. Kütləvi informasiya vasitələri ilə əlaqələr daim diqqət mərkəzində olmalı, keçirilən bütün tədbirlərin televiziya, qəzet və sosial şəbəkələrdə işıqlandırılması təmin edilməlidir.

Məruzə ətrafında müzakirələrdə Şərur Rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov, İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbinin direktoru Faiq İsgəndərov, İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin direktoru Ramin Talıbov və Şərur Olimpiya-İdman Kompleksinin direktoru Rza Camalov çıxış ediblər.

* * *

***2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən yığıncağı İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açıb.***

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Səyahət İmanov yığıncaqda məruzə ilə çıxış edib. Qeyd olunub ki, 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində tabeli müəssisə və təşkilatlarla birlikdə bir sıra işlər görülüb. Belə ki, qarşıdan gələn mövsümə hazırlıq məqsədilə mərkəzləşdirilmiş və fərdi qazanxanalarda cari təmir işləri aparılıb, qazanlar ərpdən təmizlənib, sıradan çıxmış nasos və siyirtmələr yeniləri ilə əvəz edilib, elektrik, qaz və su xətlərinə baxış keçirilib, 3 yaşayış binasının daxili, 1 yaşayış binasının xarici istilik sistemi dəyişdirilib.



Hazırda şəhərin bir neçə ünvanındakı qazanxanalarda təmir işləri aparılır, binaların daxili istilik xətləri yenilənir. Payız-qış mövsümündə Naxçıvan şəhərində 5 mərkəzləşdirilmiş, 38 fərdi qazanxana fəaliyyət göstərəcək. Mərkəzləşdirilmiş qazanxanalar vasitəsilə 62 yaşayış binasında 2 min 947 mənzil və 5 inzibati bina, fərdi qazanxanalar vasitəsilə 111 yaşayış binasında 4 min 687 mənzil və 26 inzibati bina istiliklə təmin olunacaq. Ümumilikdə, bu qış mövsümündə 5 mərkəzləşdirilmiş, 38 fərdi qazanxana vasitəsilə 173 yaşayış binası, eləcə də 7 min 634 mənzil, 31 inzibati bina istiliklə təmin ediləcək.

Bildirilib ki, qarşıdan gələn payız-qış mövsümündə təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin fasiləsiz fəaliyyətini təmin etmək də əsas vəzifələrdən biridir. Bu mövsümdə Naxçıvan şəhərində 15 məktəb, 9 uşaq bağçası fərdi, 1 uşaq bağçası mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunacaq. Yenidənqurma işləri davam etdirilən 3 və 13 nömrəli tam orta məktəb binaları payız-qış mövsümündə fərdi qazanxana vasitəsilə istiliklə təmin ediləcək. Yeni mövsümdə qazın verilişində fasilələrin yaranması ehtimalı nəzərə alınaraq mərkəzləşdirilmiş qazanxanaların mazutla, fərdi qazanxanaların isə dizel yanacağı ilə işləməsi üçün yanacaq və avadanlıq təminatı yüksək səviyyədədir. Əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə də bir sıra işlər görülüb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Tədbirə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vuraraq bildirib ki, payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə verilən tapşırıqların vaxtında yerinə yetirilməsi, qarşıya çıxacaq problemlərin operativ surətdə aradan qaldırılması günün tələbidir və şəhər infrastrukturunun fəaliyyəti ilə əlaqədar olan hər bir təşkilat bu işdə məsuliyyət daşıdığını unutmamalı, işdə buraxılan nöqsanlar qısa müddət ərzində aradan qaldırılmalıdır. Bu sahədə ötən illərin təcrübəsinə əsaslanaraq demək olar ki, növbəti payız-qış mövsümünə hazırlıq tədbirləri də yüksək səviyyədə icra olunacaq.

**Xəbərlər şöbəsi**

# dünən Naxçıvan bu gün

## Heydər Əliyev Sarayı





## Gülüstan türbəsi





Dünən, bu gün və gələcək arasında körpü salanda, Naxçıvanın dünənini araşdıranda, bu gününü görəndə, gələcəyini fikirləşəndə düşünürsən ki, vaxtilə dağıntılar, zülmətlər, çətinliklər, həlli görünməyən problemlər içində olan Naxçıvandan əsər-əlamət belə, qalmayıb. Elektrik enerjisinin, mavi yanacağın olmadığı, təməl tələbatlardan çörəyə olan ehtiyacın insanları imtahana çəkdiyi vaxtlar da olub, müharibənin gətirdiyi ağrı-acılardan əhalinin qaçıb can qurtarmağa çalışdığı zamanlar da. Köhnə binaların, yararsız hala düşmüş yolların, ağacları baltalalan parkların, bağ-bağçaların, əmlakı yağmalanan fabrik-zavodların insanların gözdağına çevrildiyinə çoxları şahidlik edib. İşsizliyin, səfalətin ayaq açıb yürüdüyü günləri də, yəqin ki, o günlərin şahidi olmuş hər kəs böyük ürəkağrısı ilə xatırlayır.

Dünəni unutmaq olmaz. Bu müdrik kəlamı aqillərimiz boş yerə deməyib. Çünki dünənini unudan bu gününün qiymətini bilə bilməz, gələcəkdə nələr etməli olduğunu dəqiqləşdirə bilməz. Olanları, keçənləri unutmaq əvvəllər qarşılaşdığımız çətinliklərin həllinin böyük əmək hesabına başa gəldiyini görməmək, bugünkü firavan həyatımızın hansı fədakarlıqlar, çətinliklər bahasına əldə edildiyini anlamamaq deməkdir.

Naxçıvan çox dəyişib, inkişaf edib, gözəlləşib. Bir vaxtlar sakit həyatın, asayişin, qayda-qanunun, bolluğun həsrətini çəkən insanlar xoşbəxt günlərə, firavanlığa qovuşublar. İndi Naxçıvan gözəl, abad kənd və qəsəbələri, möhtəşəm tikililəri olan şəhərləri, son illər bərpa olunan min illərin şahidi tarixi abidələri, yeni yolları, körpüləri, hər qarışı əkilən, gülüstana çevrilən əkin sahələri ilə qüdrətli Azərbaycanın ən müasir diyarlarından biridir. Naxçıvanın nəinki bu günü, hətta gələcəyi üçün də hər şey edilib və edilir. Bir zamanlar zülmətlər içində qalan bu diyarın bol sulu çaylarından əldə edilən nur təkcə Naxçıvanı yox, sərhədlərimizin hüdudlarından kənarları da işıqlandırır. Gündüz Günəşdən güc alan ən müasir texnikalar gecələr hər yeri nura qərq edir. Günəş ziyası qaranlıq düşəndə evlərdəki çilçıraqları al-əlvan rənglərə boyayır. Bəli, bu gün qədirbilən naxçıvanlılar dünənini unutmur, bu gününü firavan yaşayır, gələcəyə əminliklə baxırlar. Dövlətimizə sonsuz inamın, gələcəyə əminliyin təməli bundan 25 il öncə atılıb.

✍ **Səbuhi HÜSEYNOV**

## Naxçıvan şəhərində ənənəvi məktəbli yarmarkası keçirilir



***Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda ənənəvi məktəbli yarmarkası keçirilir.***

Məktəbli yarmarkasında dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantaları və başqa ləvazimatlar satışa çıxarılıb. Adıçəkilən məhsullar alıcılara digər satış yerlərindən 10-15 faiz aşağı qiymətə təklif olunur. Yarmarkada ayrı-ayrı fənlər üzrə əyani vəsaitlərin satışına da geniş yer ayrılıb. Burada satılan lüğət və digər nəşrlərə, dünya uşaq ədəbiyyatı nümunələrinə, bədii və elmi ədəbiyyata böyük alıcı marağı vardır. Qeyd edək ki, satılan bütün məhsulların keyfiyyətinə və qiymətinə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən mütəmadi nəzarət olunur.

Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanır. Həmsöhbət olduğumuz valideynlər Suqra Yusifova və Kazım Yusifov dedilər ki, dükan və bazarlardakı qiymətlərlə yarmarkadakı qiymətləri müqayisə ediblər və bu qiymətlər arasında fərq olduğunu görüblər. Bu da imkan verir ki, daha az vəsaitlə ləvazimatların hamısını və ən keyfiyyətlilərini alsınlar. Bir başqa valideyn Aytən Əliyeva isə dedi:

– Yarmarkada qiymətlər ucuzdur. Bu həm də vaxt baxımından səmərəlidir. Yarmarkaya gəlirik, lazım olan hər şeyi qısa zamanda alırıq ki, bu da dükanları gəzərək sərf etdiyimiz əlavə vaxt itkisini də aradan qaldırır. Aldıqlarımızdan hər baxımdan razıyıq.

Valideynlər belə yarmarkaların təşkil olunmasına görə dövlətimizə minnətdarlıqlarını bildirdilər.

Məlumat üçün deyək ki, 3-ü istehsalçı olmaqla, 25 sahibkarlıq subyektinin iştirak etdiyi məktəbli yarmarkası sentyabrın 15-i də daxil olmaqla, saat $9^{00}$-dan $14^{00}$-a kimi davam edəcək.

✍ **Fatma BABAYEVA**

## Naxçıvanlı idmançı Avropa çempionu olub

***Naxçıvanlı idmançılar daha bir böyük uğura imza atıblar. Belə ki, Azərbaycan Universal Döyüş Federasiyasının idmançıları Ukraynanın Odessa şəhərində Avropa çempionatına yollanıblar. Qitə birinciliyinə yollanan 14 nəfərlik heyətdə iki Naxçıvan idmançısı da yer alıb.***

95 kiloqram çəki dərəcəsində mübarizə aparan Xəyal Abdullayev ilk turda Belçika idmançısına qalib gəlib və yarımfinala yüksəlib. Bu mərhələdə onun rəqibi çexiyalı idmançı olub. Qələbəni bu mərhələdə də qeyd edən idmançımız finalda Ukrayna təmsilçisi ilə üz-üzə gəlib. Həlledici qarşılaşmada da üstünlüyü əldən verməyən Xəyal Abdullayev Avropa çempionu adını qazanıb.

Digər idmançımız – 90 kiloqram çəki dərəcəsində mübarizə aparan Ruslan Səfərov isə ilk iki mərhələdə gürcü və moldovalı idmançıları məğlub edib. Lakin final görüşündə o, Ukrayna idmançısına məğlub olaraq qitə birinciliyinin gümüş medalını qazanıb.

Sonda hər iki idmançımıza təşkilatçıların diplom və medalları təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Vəliyeva Şamama Məhərrəm qızının adına olan 7753 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Əlincə" məhəlləsi, bina 5A, mənzil 17-də yaşayan Talıbov Famil Nadir oğlunun adına olan 6810 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### Elan

Ali məktəbləri pedaqoji ixtisaslar üzrə bitirmiş gənc mütəxəssislərin nəzərinə çatdırılır ki, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi 6 sentyabr 2016-cı il tarixdə saat $10^{00}$-da Naxçıvan şəhərindəki 17 nömrəli tam orta məktəbdə ənənəvi təhsil yarmarkası keçirəcəkdir.

Təhsil yarmarkasında iştirak etmək istəyən gənc mütəxəssislər şəxsiyyətini təsdiq edən vəsiqəsini və təhsili haqqında diplomunun surətini təqdim etməlidirlər.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV



Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az



Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 659